24 noyabr / 2021

# Lənkəranda konfrans

**Lənkəran Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Lənkəran şəhər Mədəniyyət Mərkəzində keçirilən növbəti konfrans Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 29-cu ildönümünə həsr olunmuşdu. "Heydər Əliyev yolunun davamçısı" adlanan konfransda Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**

Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Şahin Şahbazov konfransı açaraq dedi:

- Azərbaycanda 80-ci illərin sonlarında başlayan xalq hərəkatı, cərəyan edən ictimai-siyasi hadisələr, iqtisadi böhran və digər prosesləri düzgün məcraya yönəltmək məqsədilə Yeni Azərbaycan Partiyasının təsis edilməsi zərurəti yarandı. 91 nəfər ziyalının imzası ilə ulu öndər Heydər Əliyevə müraciət göndərildi. Xalqını, Vətənini düşünən dahi şəxsiyyət bu çağırışa səs verdi və 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. YAP yarandığı gündən etibarən Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanılması, ölkənin ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu uğrunda şərəflə mübarizə aparıb. Zamanın tələbi, xalqın istəyi əsasında yaranan və qısa müddətdə ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan irəli gələn dəstəyi dayanır. Öz Vətənini sevən hər bir kəs ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu və son 18 ildə cənab Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyinə böyük inam və etimad bəsləyir. İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın uğurlu hərbi strategiyası, Müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsi sayəsində Vətən torpaqlarının 44 günə işğaldan azad olması bir daha göstərdi ki, cənab Prezident İlham Əliyev tərəfindən aparılan siyasətin düzgünlüyünə heç bir alternativ yoxdur.

Lənkəran Şəhər İcra Hakimiyyətinin nümayəndəsi, YAP Lənkəran Rayon Təşkilatı Qadınlar Şurasının sədr müavini Könül Manafova Yeni Azərbaycan Partiyasının yaranma və formalaşma tarixi, lider partiyanın nailiyyətlərini vurğulayaraq bildirdi ki, Azərbaycan müstəqil dövlətinin dinamik inkişafında önəmli rol oynamış ümummilli lider Heydər Əliyevin gördüyü müstəsna işlərini müasir dövrümüzdə ölkə başçısı, Prezident İlham Əliyev və onun ən yaxın silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyeva öz uzaqgörən siyasəti ilə uğurla aparırlar.

Axırda diskussiya şəraitində davam edən tədbirdə gənclərin maraq dairəsində olan suallar da cavabını tapdı.

**Zəfər ƏLİYEV,**
**Lerik rayonunun Bradi kənd klubunun müdiri,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**